# Əbədiyaşar sənətkar

*Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi münasibətilə*



18 sentyabr 2025-ci il tarixdə AYB Lənkəran Bölməsinin və Lənkəran Dövlət Dram Teatrının birgə təşkilatçılığı ilə Teatrda Azərbaycanın dahi bəstəkarı, yazıçısı, publisisti, dramaturqu və musiqişünası Üzeyir Hacıbəylinin 140 illik yubileyi münasibətilə "Əbədiyaşar sənətkar" adlı tədbir keçirildi.

Tədbirdə bölgə yazarları, teatrın rəhbər və aktyor heyəti, ziyalılar iştirak etdilər.

Tədbiri giriş sözü ilə AYB Lənkəran Bölməsinin sədri, yazıçı, dramaturq Qafar Cəfərli açaraq iştirakçıları salamladı, keçirilən tədbirin məqsəd və məramı barədə iştirakçılara qısa məlumat verdi. Sonra şəhidlərin və yubilyarın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirə moderatorluq edən Qafar Cəfərli bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, xalq artisti, Dövlət mükafatı laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 140 illiyinin qeyd edilməsi haqqında 3 fevral 2025-ci il tarixli sərəncam vermişdir. Sərəncamda Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdən olduğu, Azərbaycanda bəstəkarlıq məktəbinin banisi olmaqla novator sənətkar kimi milli musiqi xəzinəmizi unikal forma və janrlarla zənginləşdirdiyi, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda böyük şöhrət qazandırdığı xüsusilə vurğulanmışdır. Bütün bu və digər müstəsna xidmətlərini nəzərə alaraq dahi Üzeyir bəyin 140 illik yubileyinin ölkə miqyasında təntənəli şəkildə qeyd olunması qərara alınmışdır.

Lənkəran Dövlət Dram Teatrının direktoru, Azərbaycanın əməkdar mədəniyyət işçisi, Dağıstanın əməkdar artisti Lalezar Hüseynova çıxış edərək, Ü. Hacıbəylinin əsərlərinin Lənkəran teatrındakı səhnə həyatı barədə məlumat verdi. O bildirdi ki, yubileyi münasibəti ilə dahi bəstəkarın "Arşın mal alan" operettası bu il teatrda uğurla tamaşaya qoyuldu, yaxın vaxtlarda isə "O olmasın, bu olsun" operettasına da quruluş veriləcəyi nəzərdə tutulmuşdur.



Yubilyarın yaradıcılığı haqqında ətraflı danışmaq üçün söz Azərbaycan Bəstəkarlar Birliyinin Lənkəran üzrə məsul katibi Zəminə Tariyelqızına verildi. Zəminə xanım bəstəkarın çoxşaxəli yaradıcılığı haqqında ətraflı çıxış edərək, onun həm publisist, həm dramaturq, həm musiqişünaslıq fəaliyyəti barədə məlumat verdi.

Tədbirdə Lənkəran Dövlət Dram Teatrının tanınmış aktrisası Aynur Əhmədova, yazıçılardan Soyavuş Süleymanlı və Hafiz Mirzə çıxış edərək, böyük Üzeyir bəyin keşməkeşli ömür yolunun müxtəlif məqamlarına toxundular, yaradıcılıq xüsusiyyətlərindən danışaraq Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən böyük sənətkar olduğunu xüsusi olaraq qeyd etdilər.

Tanınmış xanəndə İmanverdi Ağayevin çıxışı, "Leyli və Məcnun" operasından səsləndirdiyi muğam parçası tədbirə xüsusi gözəllik qatdı. Tədbiri yekunlaşdıran Qafar Cəfərli bildirdi ki, mədəniyyətimizin inkişafında, xalqımızın dünyaya tanıdılmasında müstəsna xidmətləri olan Üzeyir bəy Hacıbəyli himninin müəllifi olduğu Azərbaycan adlı dövlət durduqca yaşayacaqdır.

Tədbir xatirə şəkilləri çəkilməklə başa çatdı.

**AYB Lənkəran bölməsi**